# CANAVARIN XİLASI

*hekayə*



■ Ələsgər ƏLİOĞLU

16 aprel 2016

WWW.KASPI.AZ



Üç-dörd gün olardı ki, el yaylağa çıxmışdı.Yamac boyu alaçıqlar təsbeh dənələri kimi cərgələnmişdi. Səhərin gözü təzəcə açılmışdı. Buna baxmayaraq çoban Məcidin qoyun yatağının qabağı adamla dolu idi. İpək torun içərisindəki canavar yazıq bir görkəm almışdı. Daha çabalamırdı. Görünür, düşdüyü fəlakətdən can qurtara bilməyəcəyini hiss etdiyindən artıq taleyi ilə barışmışdı. Kimi onun ağzına, kimi qulağına, kimi də qarnına çubuq uzadırdı. Canavar bundan qıcıqlanır, dişlərini qıcayır, tüklərini qabardırdı. Hamı da sanki bu səhnədən həzz alırdı.

Birdən Meyxoş Səlim camaatın arasında göründü. O, işdən halı olub irəli yeridi. Bir xeyli dayanıb canavara tamaşa etdi. Canavarla əylənənlər isə öz işlərində idi. Bir azdan Çoban Məcid yataqdan çıxıb qamış kərəskəyə söykənikli çomağı əlinə götürdü. Sonra torun içərisindəki canavara yaxınlaşdı. Çomaq bir neçə dəfə havaya qalxıb-endi. Canavarın ulartısı bütün ətrafı başına götürdü. Ulartı yaxınlıqdakı qayalıqda əks-səda verirdi. Bu səhnə vahimələrlə dolu qorxulu bir nağılı xatırladırdı. Canavarın bütün hirsi-hikkəsi sanki bədənindən süzülüb üzünə-gözünə çıxmışdı. Yəqin ki, ipək tor olmasaydı, onun hirsinin-hikkəsinin qabağında duran tapılmazdı. Çomağın zərbəsindən havaya sıçrayan canavar ipək toru da özü ilə havaya qaldırırdı. Bu zaman Səlim irəli durub çoban Məcidin çomağını havada tutdu:

- Özünü günaha batırma, Məcid!..

- Nə günah, ay Səlim!? Heç bilirsən bu canavar mənə nə ziyanlıq verib?

- Nə ziyanlıq verib ki?

- Düz iki qoyunumun axırına çıxıb, day neyləyəcək ki...

- Məcid, sənə bir söz desəm, incimərsən ki?..

- O nə sözdür, Səlim! Niyə inciyirəm ki?

- Denən sənin canın üçün.

- A kişi, dünyalar sənin canına qurban, sözünü de...

- Qoyununun hər biri neçəyə gedərdi?

- Səlim, öz canım üçün heç olmasa hərəsinin səksən-doxsan manat qiyməti vardı.

Səlim əlini döş cibinə salıb odun almaq üçün saxladığı pulun üstdən iki yüz manat ayırıb Məcidə uzatdı:

- Götür bunu, canavarı mənə ver, Məcid!

- Neynirsən onu? Yoxsa zoopark açırsan?

Meyxoş Səlim dinmədi. Məcid isə pulu götürmək istəmirdi. Daha doğrusu, bu təklifi özünə sığışdırmadığından qalmışdı qırıla-qırıla. Axır ki, Meyxoş Səlim bir güc-bəla ilə çobanı yola gətirdi. Pulu onun cibinə basıb: "Hələ sabahda-birisi gündə bulağın başında sənə bir qonaqlıq da verəcəyəm" deyərək, ucu koğalı ağacla ipək toru sürüyə-sürüyə adamların arasından bir kənara çəkdi. Əlindəki ağacla torun sivirtməsini özünə sarı dartıb cibindən çıxardığı bıçaqla kəsdi. Sonra ağacla torun ağzını araladı. Canavar çabalayıb tordan bayıra atıldı. Əvvəlcə duruxub qaldı. Sanki azadlığa çıxdığına inanmırdı. Gözlərini Meyxoş Səlimin üzünə zillədi. Birdən başını aşağı salıb yaxınlıqdakı qamışlığa sarı götürüldü.

Bu mənzərəni seyr eləyənlərdən çoxunun ağzından məzəmmətlə yoğrulmuş giley-güzar eşidilməyə başladı: "Deyəsən, kişinin ağlı çaşıb! Canavarı buraxdıkı qalan mal-qaranı da yesin. Görün adam heç yırtıcını da salamat buraxar!?"

Meyxoş Səlim adamların arasında eşidilən pıçıltılardan işin nə yerdə olduğunu anladı. İrəli yeriyib düz onların qarşısında dayandı:

- Ay camaat, hiss edirəm ki, canavarı tordan açıb buraxmağım heç xoşunuza gəlmədi. Bu canavar nə qədər ziyanlıq versə belə, yenə də təbiətə böyük xeyiri vardır. Ətrafı bütün xəstə qurd-quşdan təmizləyir. Qoymur xəstəlikləri geniş yayılsın. Pulsuz-pənasız sanitar işləyir. Sanitar Cəfərdən daha fərəsətlidi. Bir də ki, o, bir şey tapıb yeməlidir, ya yox!?

Meyxcoş Səlimin sualı cavabsız qaldı. Kimi başını aşağı salıb fikrə getdi, kimi də ağız büzdü...

Aradan bir neçə gün keçmişdi. Yenə də camaatın söz yeri Meyxoş Səlimin canavarı xilas etməyi idi, yenə də onu qınayırdılar. Onu heç haqlı sayan tapılmırdı ki, tapılmırdı...

...Meyxoş Səlimin çoban Məcidə qonaqlıq boyun olduğu birdən yadına düşdü. O, ötən axşam nəvəsinin ad gününə kəsdiyi erkəyin bir budunun qaldığını bilirdi. Olandan-olmazdan yığıb-yığşırdı, həmin budu da bürüb-büküb qoltuğuna vurdu və üz tutdu Çoban Məcidin yatağına sarı. Qaşa çıxıb Məcidi səslədi. Çox keçmədi ki, Məcid yataqdan çıxıb Qaşa tərəf dırmaşdı. Salam-kəlamdan sonra Meyxoş Səlim dedi:

- Qardaş, canavardan ötrü bir qonaqlıq borcluyam. Çıxaq bulağın başına. Az qala yadımdan çıxmışdı...

Bir azdan bulağın həndəvərində çəkilən kababın qoxuysu adamda xoş bir iştaha gətirirdi. Meyxoş Səlim litirlik bankada götürmüş olduğu zoğal arağının qapağını açıb qədəhləri doldurdu.

Onlar üçüncü qədəhi yenicə içmişdilər. Bir də başlarını qaldırıb gördülər ki, tanımadıqları ortaboylu bir kişi və bir polis nəfəri onlara sarı yaxınlaşır. Meyxoş Səlim də, çoban Məcid də təəccübləndilər. Çağırılmamış qonaqlar bulağın başına çatdılar. Yüngülcə salamdan sonra polis işçisi əmranə bir tərzdə barmağı ilə yanındakı kişini göstərib dilləndi:

- Burada tünlük eləməyin, Bulağın başını da boşaldın. Buralar artıq bu kişinindir. Sabaha qədər də sizə vaxt verilib.

Çoban Məcid heç bir söz demədi. Polis nəfəri və kişi çıxıb getdilər. Onların arxasınca Meyxoş Səlimlə çoban Məcid yatağa sarı üz tutdular. Baxdılar ki, burada camaat narahatdır. Bu mənzərəni acı-acı nəzərdən keçirən çoban Məcidi birdən-birə od götürdü:

Hamı susurdu... Bu zaman Meyxoş Səlim hiss etdi ki, pencəyinin yan cibinə bir əl girdi. Çevrildi ki, bu əl çoban Məcidindir. O, təəccüblə: "neynirsən, ə?" - deyə soruşdu.

Xəcalətli bir tərzdə: "Heç nə, məni bağışla!" - deyə cavab verən Məcid başını aşağı salmışdı...